**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
__________dos. Zaur Məmmədov
"31" 01 ____2025-ci il

**Fənn sillabusu**

**İxtisas:** 050101–Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı**: Azərbaycan ədəbiyyatı tarixi-3 (XX əsr) Fənn proqramı:Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti Dil və Ədəbiyyat kafedrası. Bakalavr hazırlığı üçün Proqramlar toplusu.
**Kodu: İF-B10.3**
**Tədris ili:** II (2024-2025) Semestr: IV
**Tədris yükü cəmi:** Auditoriya saatı – 45 (30 saat müh., 15 saat sem.)
**Tədrisalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 4 kredit
**Auditoriya №**
**Saat:**
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmi dərəcəsi və elmi adı:** ***Yədulla Ağazadə, f.e.d, prof.***
**Məsləhət günləri və saatı:**
**E-mail ünvanı:***y.ağazade@mail.ru*
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat:**

1. M.Cəlal, F Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı, Bakı, 1992
2. Müasir Azərbaycan ədəbiyyatı.Bakı, 2007. I cild
3. Azərbaycan ədəbiyyatı tarixi. II cild. Bakı, 1960

**Əlavə ədəbiyyat:**

4. C.Xəndan. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı, 1962
5. Ə.Mirəhmədov. Azərbaycan "Molla Nəsrəddin"çi. Bakı, 1982
6. F.Hüseynov. Satirik gülüşün qüdrəti. Bakı, 1982
7. M.Cəlal. Azərbaycanda ədəbi məktəblər, Bakı, 2004
8. Y.Ağazadə. Müasir Azərbaycan poeziyasında Sabir satira ənənələri, Bakı, 2012.
9. Y.Ağazadə "Azərbaycan poeziyasında satira ənənələri". Bakı, 2010
10. Y.Ağazadə Müasir ədəbi proses və satirik poeziya. Bakı, 2016

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən Azərbaycan ədəbiyyatı tarixi 1 və 2 fənlərinin tədrisi vacibdir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur

**VI.Fənnin təsviri və məqsədi:** Azərbaycan ədəbiyyatı tarixinin mərhələləri sırasında XX əsr mərhələsi milli mədəniyyətimizin və ədəbiyyatımızın inkişafı, ədəbi növ, janr, yeni bədii formaların yaranması, metod və üslub yeniliklərinin meydana çıxması baxımından xüsusi önəm təşkil edir. XX əsr Azərbaycan ədəbiyyatı həm də yeni, orijinal yaradıcılıq tərzinə, fərdi üsuluba malik ədəbi simaların meydana çıxması ilə diqqətəlayiqdir. Buna görə də bütün sahələrdə olduğu kimi ədəbiyyatın təbliğində,öyrədilməsində ən başlıca vasitə onun orta və ali məktəblərdə yüksək səviyyədə tədrisi ilə bağlıdır. Bu fənnin mövzuları sırasında həm

də XX əsrin 50-ci illərinə qədərki dövrün ədəbi yaradıcılıq, problem və prioritet məsələləri də əksini tapmış və bu dövr ədəbiyyat tariximizin mühüm bir mərhələsi kimi ədəbi-estetik, elmi-metodoloji aspektdən əhatə olunmuşdur. Bu baxımdan fənn tədrisi tələbələrin həmin bilgiləri mənimsəmələrinə böyük yardımçı olacağı şübhəsizdir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:
- 10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam açа bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X. Təqvim mövzu planı:** Cəmi: 45 saat. Mühazirə-30; seminar-15.

| № | Keçirilən mühazirə məşğələlərinin məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1. | XX əsrin əvvəllərində ictimai-siyasi vəziyyət, mətbuat və ədəbiyyat.<br>**Plan:** 1. XX əsrin əvvəllərində ictimai-siyasi vəziyyət 2. İdeya və siyasi mübarizələr, mətbuat və ədəbiyyat 3.Müəllimlər qurultayı və uşaq mətbuatı,<br>**Mənbə:** [1,7,8] | 2 | |
| 2. | Ə.Hüseynzadə və "Füyzat" jurnalı.<br>**Plan:** 1. Ə.Hüseynzadə. 2."Həyat"dan "Füyuzat"a gedən yollar.<br>**Mənbə:** [1,3,5,6,7] | 2 | |
| 3. | Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı<br>**Plan:** 1.C.Məmmədquluzadənin dövrü və həyatı 2.C.Məmmədquluzadənin yaradıcılığı 3.Publisistikası | 2 | |

| | | | |
|---|---|---|---|
| | **Mənbə:** [1,2,5,7,8] | | |
| **4.** | Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı<br>**Plan:** 1.Jurnalın yaranma səbəbi, fəaliyyət illəri 2. "Molla Nəsrəddin" zamanın aynası kimi 3.M.Ə.Möcüz satirasının sənətkarlıq xüsusiyyətləri | 2 | |
| **5.** | Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığı<br>**Plan:** 1.Həyatı, satirik şeir yaradıcılığı 2.Sabirin lirikası, uşaq şeirləri<br>**Mənbə:** [1,4,5,6,7] | 2 | |
| **6.** | M.Ə.Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri<br>**Plan:** 1. Sabir novator sənətkar kimi 2. M.Ə.Sabir şeirinin dil, üslub xüsusiyyətləri<br>**Mənbə:** [1,4,5,7,8] | 2 | |
| **7.** | Nəriman Nərimanovun həyat və yaradıcılığı<br>**Plan:** 1.N.Nərimanovun həyat və yaradıcılığı 2.N.Nərimanov və "Nadir şah" tarixi faciəsi 3.N.Nərimanovun nəsri<br>**Mənbə:** [1,2,3,7,8] | 2 | |
| **8.** | Əbdürrəhimbəy Haqverdiyevin həyat və yaradıcılığı<br>**Plan:** 1. Ə.Haqverdiyevin həyat və yaradıcılığı 2. Ə.Haqverdiyevin nəsri 3. Ə.Haqverdiyevin dramaturgiyası<br>**Mənbə:** [1,6,7,8] | 2 | |
| **9.** | Sabir ədəbi məktəbi: Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Möcüz və b.<br>**Plan:** 1.Ə.Nəzmi yaradıcılığı 2.M.S.Ordubadinin poeziyası və nəsri 3.Ə.Qəmküsarın satiraları 4.M.Möcüz, B.Abbaszadə<br>**Mənbə:** [1,4,6,7,8] | 2 | |
| **10.** | Maarifçi-didaktik yazıçılar<br>**Plan:** 1. R.Əfəndiyev 2.S.M.Qənizadə 3. Y.V.Çəmənzəminli<br>**Mənbə:** [1,2,3,7] | 2 | |
| **11.** | A.Şaiq, S.S.Axundov<br>**Plan:** 1.A.Şaiqin həyat və yaradıcılığı 2.S.S.Axundovun həyat və yaradıcılığı<br>**Mənbə:** [1,2,3,6] | 2 | |
| **12.** | XX əsrin əvvəllərində bədii nəsr (İ.Musabəyov, Z.Marağayi.)<br>**Plan:** 1.İbrahim bəy Musabəyovun həyat və yaradıcılığı 2. İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənəti" əsəri 3.Z.Marağayinin həyat və yaradıcılığı<br>**Mənbə:** [1,2,3,7,8] | 2 | |
| **13.** | Romantik ədəbiyyat. M.Hadi, A.Səhhət<br>**Plan:** 1.M.Hadinin həyat və yaradıcılığı 2.A.Səhhətin həyat və yaradıclığı<br>**Mənbə:** [1,2,3,7,8] | 2 | |
| **14.** | H.Cavidin həyat və yaradıcılığı<br>**Plan:** 1.H.Cavidin həyat və yaradıcılığı 2.H.Cavidin lirikası 3.H.Cavidin dramaturgiyası<br>**Mənbə:** [1,2,37,8.] | 2 | |
| **15.** | Ədəbiyyatşünaslıq. Firudin bəy Köçərli, A.Sur.<br>**Plan:**1. Yeni ədəbiyyat uğrunda mübarizə2. F.Köçərli ədəbiyyat tarixçisi kimi 3. A.Surun ədəbi görüşləri<br>**Mənbə:** [1,7.] | 2 | |

| № | Keçirilən seminar məşğələlərinin məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1. | XX əsrin əvvəllərində ictimai-siyasi vəziyyət, mətbuat və ədəbiyyat, Ə.Hüseynzadə və "Füyzat" jurnalı. | 2 | |
| 2. | Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı, Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı | 2 | |
| 3. | Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığı, M.Ə.Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri | 2 | |
| 4. | Nəriman Nərimanovun həyat və yaradıcılığı, Əbdürrəhimbəy Haqverdiyevin həyat və yaradıcılığı | 2 | |
| 5. | Sabir ədəbi məktəbi: Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Möcüz və b., Maarifçi-didaktik yazıçılar | 2 | |
| 6. | A.Şaiq, S.S.Axundov, XX əsrin əvvəllərində bədii nəsr (İ.Musabəyov, Z.Marağayi.) | 2 | |
| 7. | H.Cavidin həyat və yaradıcılığı | 2 | |

| 8. | Ədəbiyyatşunaslıq. Firudin bəy Köçərli, A.Sur. | 1 | | |
|---|---|---|---|---|

**XI.Fənn üzrə tələblər, tapşırıqlar:**

Tələbə Azərbaycan ədəbiyyatının XX əsr mərhələsi çərçivəsində ədəbi prosesin büyün növ və janrları üzrə tam elmi-nəzəri məlumata yiyələnməli, həmin dövrün ədəbi simaların bədii yaradıcılıqlarını öyrənməli, ədəbi cərəyan, metod,üslub və digər problem və ədəbiyyatın digər məsələlərlə bağlı bilgiləri mənimsəməlidir.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Tələbələr Azərbaycan ədəbiyyatı tarixinin mərhələləri sırasında XX əsr mərhələsi milli mədəniyyətimizin və ədəbiyyatımızın inkişafı, ədəbi növ, janr, yeni bədii formaların yaranması, metod və üslub yeniliklərinin meydana çıxması haqqında informasiya əldə edir.
- XX əsr Azərbaycan ədəbiyyatı həm də yeni, orijinal yaradıcılıq tərzinə, fərdi üsuluba malik ədəbi simalarını öyrənir.
- XX əsrin 50-ci illərinə qədərki dövrün ədəbi yaradıcılıq, problem və prioritet məsələləri də əksini tapmış və bu dövr ədəbiyyat tariximizin mühüm bir mərhələsi kimi ədəbi-estetik, elmi-metodoloji aspektdən əhatə olunmuşdur. Bu baxımdan fənn tədrisi zamanı həmin bilgilər tələbələr tərəfindən mənimsənilir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. XX əsrin əvvəllərində ictimai-siyasi vəziyyət, mətbuat və ədəbiyyat.
2. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri
3. Ə.Hüseynzadə "Füyuzat" jurnalı
4. Molla Nəsrəddin jurnalı
5. C.Məmmədquluzadənin hekayə yaradıcılığı.
6. C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povesti.
7. C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri
8. Mirzə Ələkbər Sabirin həyatı, satirik şeir yaradıcılığı
9. Sabirin lirikası, uşaq şeirləri
10. M.Ə.Möcüz satirasının sənətkarlıq xüsusiyyətləri

**II kollokvium sualları**

1. N.Nərimanovun "Nadir şah" tarixi faciəsi.
2. N.Nərimanovun nəsri.
3. Ə.Haqverdiyevin həyat və yaradıcılığı.
4. Ə.Haqverdiyevin nəsri.
5. M.S.Ordubadinin həyat və yaradıcılığı
6. Maarifçi-didaktik yazıçılar:S.M.Qənizadənin həyat və yaradıcılığı
7. Maarifçi-didaktik yazıçılar:R.Əfəndiyevin həyat və yaradıcılığı
8. Maarifçi-didaktik yazıçılar:Y.V.Çəmənzəminlinin həyat və yaradıcılığı
9. A.Şaiqin nəsri. "Məktub yetişmədi" hekayəsi
10. A.Şaiq uşaq yazıçısı kimi

**XV. İmtahan sualları:**

1. XX əsrin əvvəllərində ictimai-siyasi vəziyyət, mətbuat və ədəbiyyat.
2. Milli şüurun inkişafında mətbuatın rolu.
3. Müəllimlər qurultayları və uşaq mətbuatı.
4. Ə.Hüseynzadə,"Füyuzat" jurnalı
5. "Mollan Nəsrəddin" jurnalının ideya-bədii xüsusiyyətləri
6. C.Məmmədquluzadənin nəsr yaradıcılığı
7. C.Məmmədquluzadənin publisistikası
8. C.Məmmədquluzadənin hekayə yaradıcılığı.
9. C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povesti.
10. C.Məmmədquluzadənin satirik komediyaları.
11. C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri
12. Mirzə Ələkbər Sabirin həyatı, satirik şeir yaradıcılığı
13. M.Ə.Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri
14. Sabirin lirikası, uşaq şeirləri
15. M.Ə.Sabir novator sənətkar kimi.

16. N.Nərimanovun həyat və yaradıcılığı
17. N.Nərimanovun "Nadir şah" tarixi faciəsi.
18. N.Nərimanovun nəsri
19. Ə.Haqverdiyevin həyat və yaradıcılığı.
20. Ə.Haqverdiyevin nəsri. "Atalar və oğul"əsərinin məzmunu
21. Ə.Haqverdiyevin dramaturgiyası, "Ağa Məhəmməd Şah Qacar" faciəsi.
22. M.S.Ordubadinin həyat və yaradıcılığı
23. M.S.Ordubadinin nəsri
24. Maarifçi-didaktik yazıçılar:S.M.Qənizadənin həyat və yaradıcılığı
25. Maarifçi-didaktik yazıçılar:R.Əfəndiyevin həyat və yaradıcılığı
26. Maarifçi-didaktik yazıçılar:Y.V.Çəmənzəminlinin həyat və yaradıcılığı
27. A.Şaiqin həyat və yaradıcılığı
28. A.Şaiqin nəsri. "Məktub yetişmədi" hekayəsi
29. A.Şaiq uşaq yazıçısı kimi
30. S.S.Axundovun həyat və yaradıcılığı
31. S.S.Axundovun "Qorxulu nağıllar" silsiləsi.
32. S.S.Axundovun "Qaraca qız" hekayəsi
33. XX əsrin əvvəllərində bədii nəsr. (İ.Musabəyov, Z.Marağayi.)
34. İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənəti" əsəri
35. Romantik ədəbiyyat M.Hadinin romantik lirikası.
36. A.Səhhətin həyat və yaradıcılığı.
37. Abbas Səhhət və uşaq ədəbiyyatı
38. A.Səhhətin "Şair, şeir pərisi və Şəhərli" şeiri.
39. H.Cavidin həyatı və yaradıcılığı
40. H.Cavidin dramaturgiyası
41. H.Cavidin lirikası
42. H.Cavidin "Şeyx Sənan" pyesi.
43. H.Cavidin "Azər" poeması.
44. H.Cavidin "İblis" faciəsi
45. F.Köçərli ədəbiyyat tarixçisi kimi

"Azərbaycan ədəbiyyatı tarixi-3 (XX əsr)**"** fənninin sillabusu **050101–Azərbaycan dili və ədəbiyyatı müəllimliyi** ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. "Azərbaycan dili və ədəbiyyat" kafedrasının 31 yanvar 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol№ 05).

**Fənn müəllimi:** **prof.Y.B.Ağazadə**

**Kafedra müdiri:** **dos.Q.İ.Rufullayev**